E-1507

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər – N.F.Nəsibova, R.N.Hüseynəliyev

etiraz verən "Bahlsen GmbH & Co. KG" /ünvan: Podbielskistrasse 11, 30163 Hannover (DE) nümayəndəsi patent müvəkkili R.K.Orucovun,

qarşı tərəf "Kharkivska biskvitna fabryka" /ünvan vul.Lozivska 8, Kharkiv 61017/ nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyevin iştirakları ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

16.06.2017 il tarixdə "Kharkivska biskvitna fabryka" məxsus olan "ЗООЛЕНД ZOOLAND" adlı əmtəə nişanının 30-cu sinifin əmtəələri üzrə 1070700 saylı qeydiyyatına qarşı "Bahlsen GmbH & Co. KG" adından patent müvəkkili R.K.Orucov tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, ÜƏMT-nın saytında "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanının qeydə alınması haqda məlumat dərc edilmişdir (IR: 1070700; sinif: 30; qeydiyyat tarixi: 11.02.2011; nişan sahibi: Publichne aktsionerne tovarystvo "Kharkivska biskvitna fabryka". Bu haqda məlumat Bahlsen GmbH & Co. KG, DE (bundan sonra – Bahlsen GmbH) şirkətinə daxil omuşdur. Bahlsen GmbH şirkətinin məlumatına görə, 30-cu sinfə aid olan məhsullar arasında "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanı altında məhsul Azərbaycanda istifada edilmir. 2017-ci il yanvar-mart dövründə Bakının müxtəlif mağazalarında Kharkivska BF şirkətinin istehsal etdiyi malların, o cümlədən "ЗООЛЕНД ZOOLAND" nişanlı məhsulun axtarışı aparılmışdır. Məlum olmuşdur ki, satışda Kharkivska BF istehsalı olan yalnız konfetlər movcuddur, amma yenə də bu sırada "ЗООЛЕНД ZOOLAND" adlı konfetlərə rast gəlinməmiş, və bu adda konfetlər əvvəllər də satışa daxil olmamışdır. Həmçinin Azərbaycanda ixtisaslaşdırılmış sərgilər, o

cümlədən qida məhsulları istehsalçıları üçün sərgilər keçirən Iteca Caspian şirkətinə sorğu göndərilmişdir. Sorğunun məqsədi Kharkivska BF şirkətinin son beş il ərzində Azərbaycanda sərgilərdə iştirak edib-etməməsi, və əgər iştirak edibsə, "ЗООЛЕНД ZOOLAND" adlı məhsulun reklam edib-etmədiyi idi. Nəticədə Iteca Caspian şirkətdən cavab alınmışdır ki, Kharkivska BF şirkəti Azərbaycanda keçirilən sərgilərdə iştirak etməmişdir. Kharkivska BF şirkəti AR "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanununun 26-cı maddəsində nəzərdə tutulmuş "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanının, qeydiyyat IR: 1070700 istifadə olunması ilə bağlı hərəkətlər həyata keçirməmişdir. Nəzərə alaraq ki, "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanının qeydiyyatı günündən 5 ildən artıq vaxt keçmişdir, lakin əmtəə nişanı sahibi tərəfindən istifadə olunmur, "AR Qanununun" 30-cu maddəsinə əsaslanaraq, "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanının IR: 1070700 N-li qeydiyyatının ləğv edilməsi Apellyasiya şurasından xahiş edilmişdir.

Apellyasiya şurasının iclası zamanı tərəflərin nümayəndələri qarşılıqlı razılıq əldə edilməsi üçün danışıqlar aparıldığını bildirmiş və 16 mart 2018-ci il tarixdə tərəflər arasında imzalanmış 07 mart 2018-ci il tarixli razılıq məktubunu təqdim etmişlər.

Apellyasiya şurasının iclası zamanı iddiaçının nümayəndəsi, patent müvəkkili R.K.Orucov vəsatət təqdim edərək "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanınn sahibi Publichne aktsionerne tovarystvo "Kharkivska biskvitna fabryka" və "Bahlsen GmbH" arasında onlara məxsus əmtəə nişanlarının Azərbaycanda istifadə edilməsi barədə razılıq əldə edildiyi üçün IR 1070700 saylı əmtəə nişanının ləğv edilməsi barədə verdiyi ərizənin geri çağırılmış hesab edilməsini xahiş etmişdir.

Apellyasiya şurası Publichne aktsionerne tovarystvo "Kharkivska biskvitna fabryka" və "Bahlsen GmbH" arasında bağlanmış 07 mart 2018-ci il tarixli razılıq məktubunu araşdıraraq müəyyən etdi ki, Publichne aktsionerne tovarystvo "Kharkivska biskvitna fabryka" "Bahlsen GmbH"-ə onun "ZOO" (372243) əmtəə nişanının Azərbaycan Respublikası ərazisində 30-cu sinif əmtəələri ilə istifadəsinə və qeydiyyata alınmasına razılıq verir.

Apellyasiya şurası 07 mart 2018-ci il tarixli razılıq məktubunu və iddiaçının nümayəndəsi, patent müvəkkili R.K.Orucov vəsatət nəzərə alaraq, hesab edir ki, IR 1070700 saylı əmtəə nişanının ləğv edilməsi barədə "Bahlsen GmbH & Co. KG" adından patent müvəkkili R.K.Orucov tərəfindən verilmiş ərizə geri çağırılmış hesab edilməlidir.

Apellyasiya şurasının Əsasnaməsinin 6.3-cü bəndində göstərilmişdir ki; "Etiraz vermiş şəxs və ya onun nümayəndəsi Apellyasiya şurasının qərarı elan olunanadək verilmiş etirazı geri götürə bilər. Bu zaman etirazın verilməsi üçün ödənilmiş rüsum geri qaytarılmır."

Şərh edilənlərə əsasən və Apellyasiya şurasının Əsasnaməsinin 6.3-cü bəndini rəhbər tutaraq, Apellyasiya şurası

Qərara aldı:

1 "ЗООЛЕНД ZOOLAND" adlı əmtəə nişanının 30-cu sinifin əmtəələri üzrə 1070700 saylı beynəlxalq qeydiyyatına qarşı "Bahlsen GmbH & Co. KG" adından patent müvəkkili R.K.Orucov tərəfindən verilmiş etiraz ərizəsi geri çağırılmış hesab edilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev